QANUN № 07 (381), 2026, s. 154-159

**Mürşüdov Rəşad Ramil oğlu,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının doktorantı
E-mail: mursudov.resad77@mail.ru

**UOT 343.2/.7**
**DOI: https://doi.org/10.30546/2218-9130.007.2026.9223**

# MÜASİR CİNAYƏT HÜQUQUNDA EHTİYATSIZLIQ VƏ DOLAYI QƏSD ARASINDAKI SƏRHƏD: ŞÜURLU DAVRANIŞ ELEMENTİ VƏ MÜQAYİSƏLİ HÜQUQİ TƏHLİL

***Açar sözlər**: ehtiyatsızlıq, qəsd, şüurlu davranış, qəbul edilən risk, hüquq sistemi.*

***Ключевые слова:** неосторожность, умысел, осознанное поведение, принятый риск, правовая система.*

***Keywords:** negligence, intent, conscious behavior, accepted risk, legal system.*

## Giriş

Cinayət hüququnun fundamental prinsiplərindən biri də odur ki, şəxs törətdiyi əməlin yalnız fiziki tərəfinə (*actus reus*) görə deyil, həm də həmin əmələ olan daxili münasibətinə (*mens rea*) görə məsuliyyət daşıyır. Ehtiyatsızlığın növləri və dolayı qəsd arasındakı sərhəd ən çox mübahisə doğuran sahədir, çünki hər iki halda subyekt ictimai təhlükəli nəticəni birbaşa arzulamır, lakin riskli davranış nümayiş etdirir. Standart doktrina bu fərqi subyektin riski dərk edib-etməməsi (şüurlu davranış) ilə izah edir. Bu baxımdan belə bir sual meydana çıxır: ehtiyatsızlıqla dolayı qəsd arasındakı fərq yalnız nəzəri xarakter daşıyır, yoxsa cinayət məsuliyyətinin müəyyən edilməsi baxımından da hüquqi əhəmiyyətə malikdir? Anqlosakson cinayət hüququnda ehtiyatsızlıq, subyektin öz hərəkətinin yaratdığı "əhəmiyyətli və əsaslandırılmamış riskdən şüurlu şəkildə boyun qaçırması" kimi təyin olunur. Burada iki mühüm komponent var: subyektiv (şəxsin riski dərk etməsi) və obyektiv (riskin ağlabatan insan nöqteyi-nəzərindən qəbuledilməz olması). Dan Morkelə görə, cinayətkarcasına özünəgüvənməni yalnız "şüurlu etinasızlıq" kimi görmək onun mahiyyətini tam ifadə etmir və bu növ əməllər əqli və iradi cəhətdən dolayı qəsdlə oxşarlıq təşkil edir [10, s. 326].

### Antoni Daffın "Praktiki Münasibət" Modeli

İngilis hüquq filosofu Antoni Daff şüurlu davranışın dominant roluna qarşı çıxır. Onun arqumentinə görə, ehtiyatsızlığı və dolayı qəsdi ayıran şey şəxsin zehni vəziyyəti (nəyi bilib-bilmədiyi) deyil, onun zərərçəkmişin hüquqlarına və maraqlarına olan "praktiki münasibətidir". Daff iddia edir ki, əgər subyektin əməlində risk açıq-aşkardırsa, lakin o, buna diqqət yetirmirsə, bu xəbərsizliyin özü bir növ "laqeydlik" təzahürüdür. Daffın modelində "şüurlu ehtiyatsızlıq" anlayışı mümkün sayılır. Lakin Qrinberq bu

yanaşmanın ciddi çatışmazlıqlarını ifşa edir. O bildirir ki, əməlin mümkün nəticələrini "qəbul etmək" və ya "dəstəkləmək" (*endorsement*) mütləq şəkildə həmin faktın dərk olunmasını tələb edir. Bir şəxs bilmədiyi bir şeyi necə qəbul edə bilər? Əgər mən çəkiclə divarı sındırıramsa və arxada kimsə olduğunu bilmirəmsə, mən bu riski "qəbul etmiş" sayılmıram; mən sadəcə o riskdən xəbərsizəm. Daffın modelindəki "laqeydlik" əslində subyektin xarakterinə aid bir problemdir, şüurlu davranış isə konkret cinayət əməlinə münasibətdə hələ də həlledicidir [3, s. 645].

Şüurlu davranış meyarını müdafiə edərkən ən böyük problem "şüur" anlayışının necə başa düşülməsidir. Bəzi tənqidçilər deyirlər ki, insanlar hər dəqiqə törətdikləri riskləri şüurlu şəkildə düşünmürlər. Qrinberq bu problemi aradan qaldırmaq üçün şüurluluğu iki hissəyə ayırır:

- Şüur axını (*stream of consciousness*): Bu, şəxsin həmin anda aktiv şəkildə düşündüyü fikirlərdir.
- Dayanıqlı şüurluluq vəziyyəti (*standing state of awareness*): Bu, şəxsin daxilində olan, lakin hər saniyə aktiv düşüncəyə çevrilməyən bilik və inanclardır.

Məsələn, bir sürücü döngəyə yaxınlaşanda sürəti azaltmalı olduğunu hər dəfə öz-özünə demir, o, bu riski bilir və bu bilik onun hərəkətlərini idarə edir. Cinayət hüququnda ehtiyatsızlıq üçün məhz bu "dayanıqlı vəziyyət" kifayətdir. Bu, subyektivizmi "anidən ağla gələn fikirlər" səviyyəsindən çıxarıb daha obyektiv və sübut oluna bilən bir müstəviyə qoyur.

**Alman hüquq nəzəriyyəsində müqayisəli təhlil: *Dolus Eventualis* və *Bewusste Fahrlässigkeit***

"Recklessness" anlayışının Alman hüquq nəzəriyyəsindəki ekvivalentlərini təhlil edərkən qəsd və ehtiyatsızlıq arasındakı sahənin daha incə detallarla ayrıldığını müşahidə edə bilirik.

- Dolus Eventualis (Ehtimal olunan qəsd): Subyekt ictimai təhlükəli nəticənin baş vermə ehtimalını ciddi qəbul edir və onunla razılaşır (*billigen*). Morkel qeyd edir ki, burada şəxs nəticənin baş verməsini arzulamasa da, onu öz məqsədinə çatmaq üçün "məqbul bir qiymət" kimi görür.
- Bewusste Fahrlässigkeit (Şüurlu ehtiyatsızlıq): Şəxs riski dərk edir, lakin öz bacarığına, təcrübəsinə və ya bəxtinə güvənərək nəticənin baş verməyəcəyinə inanır (*trust*).

Anqlosakson hüququndakı "recklessness" bu iki fərqli psixoloji vəziyyəti bir yerə yığır və bu bəzən ədalətsizliyə səbəb olur. Məsələn, yüksək sürətlə maşın sürən sürücü "qəza ola bilər, amma mən peşəkaram, qəza olmayacaq" deyə düşünürsə, bu əməl, alman hüquq nəzəriyyəsində "şüurlu ehtiyatsızlıq" sayılır. Əgər "qəza olsa da, mən təyinat nöqtəsinə çatmalıyam" deyirsə, bu artıq qəsdin bir formasıdır (*dolus eventualis*). Anqlosakson hüququndakı "recklessness" bu fərqi itirir və hər iki halı eyni dərəcədə yüksək ictimai təhlükəliliklə xarakterizə edir [7, s. 54].

Tədqiqatımızın digər müzakirə aspekti şüurlu davranışın təqsirlilik dərəcəsini artırdığını izah edən "əlavə imkan" (*extra opportunity*) nəzəriyyəsidir. Qrinberq iddia edir ki, dolayı qəsdlə cinayət törədən subyekt, ehtiyatsızlıqdan cinayət törədəndən fərqli olaraq, riski dəyərləndirmək və ondan çəkinmək üçün mənəvi bir imkana malikdir. Ehtiyatsızlıqdan cinayət törədən şəxs isə riski görmədiyi üçün həmin anda bu seçim imkanına malik deyil. Hərçənd ki, həmin şəxs "diqqətli olmalı olduğu üçün" təqsirlidir, lakin bilə-bilə risk götürən şəxs ona verilən "əlavə imkan"ı dəyərləndirmədiyi üçün daha yüksək təqsirlilik dərəcəsinə malikdir. Ehtiyatsızlıqdan törədilən cinayət subyektin "başına gələn" bir hadisə kimidirsə, dolayı qəsddə bu, subyektin öz şüurlu davranışının məhsuludur. Niyə qanunvericilik ehtiyatsız davranışı hər zaman cinayət hesab etmir? Qrinberq və Morkel bu məqamda fərdi azadlıq arqumentinə toxunurlar. Ehtiyatsız davranışa görə geniş cinayət

məsuliyyəti yaratmaq insanları hər addımda həddindən artıq ehtiyatlı olmağa məcbur edir və bu, cəmiyyətdə "iflic" yarada bilər. Buna baxmayaraq, bəzi hallarda məsələn, insan həyatı və cinsi toxunulmazlıq kimi fundamental maraqlar təhlükədə olduqda şüurlu davranış prezumpsiyası pozulur və cinayət tərkibi yaranır. Aleksandr Qrinberq qeyd edir ki, şüurluluq hər zaman subyektin "şüur axınında" (*stream of consciousness*) baş verən anlıq bir hadisə deyil. Bir çox tənqidçilər iddia edirlər ki, cinayət törədən şəxslər çox vaxt risk barədə aktiv şəkildə düşünmürlər. Lakin Qrinberqə görə, cinayət hüququnun ehtiyac duyduğu şüurluluq növü "dayanıqlı vəziyyət" (standing state of awareness) növündədir. Bu o deməkdir ki, şüurluluq bilik və ya inanc kimi disposizional bir vəziyyətdir. Məsələn, rutin maşın sürən bir şəxs dairəvi yola yaxınlaşarkən ötürücünü dəyişməli olduğunu hər saniyə öz-özünə demir, lakin o, bu faktın fərqindədir və bu şüurluluq onun hərəkətlərini idarə edir. Əgər biz dolayı qəsdi yalnız "şüur axını" ilə məhdudlaşdırsaydıq, bir çox sürücü "həmin an bu riski düşünmürdüm" deyərək məsuliyyətdən yayına bilərdi. Lakin "dayanıqlı vəziyyət" modeli göstərir ki, risk faktı şəxsin idrakında mövcuddursa, o, dolayı qəsd (reckless) sayılmalıdır. Bu fərqləndirmə subyektiv olan təqsiri daha obyektiv sübutetmə müstəvisinə çıxarır. Burada ehtiyatsızlığın növləri və dolayı qəsd arasında normativ uçurum yaranır. Dolayı qəsd törədən subyekt risk faktından xəbərdar olduğu üçün onun qarşısında "mənəvi seçim" dayanır: bu riski dayandırmaq və ya davam etmək. Şəxsə verilən bu "əlavə imkan" (extra opportunity) onun təqsirini fundamental şəkildə ağırlaşdırır. O, sadəcə diqqətsiz deyil, həmçinin mənəvi bir xəbərdarlığı gözardı edən şəxsdir [6, s. 360].

Antoni Daff öz modelini müdafiə etmək üçün İngiltərə hüququndakı zorlama (*rape*) və adam öldürmə (*murder*) cinayətlərinə istinad edir. Daff iddia edir ki, əgər bir kişi qadının razılığına "əhəmiyyətsiz bir detal" kimi baxırsa və buna görə də razılığın olub-olmamasına diqqət yetirmirsə, onun bu xəbərsizliyi (inadvertence) elə dolayı qəsdin özüdür. Lakin Qrinberq bu arqumentdəki məntiqi dolaşıqlığı (equivocation) ifşa edir. O bildirir ki, Daff burada iki fərqli ideyanı bir-birinə qarışdırır:

1. Şəxsin ümumi olaraq qurbanın maraqlarına qarşı laqeyd olması (xarakter problemi).
2. Şəxsin konkret bir risk faktını (məsələn, qurbanın razı olmaması riskini) "qəbul etməsi".

Qrinberqə görə, birinci (ümumi laqeydlik) ikincini (konkret riski qəbul etməyi) sübut etmir. Bir şəxs bilmədiyi bir faktı "qəbul edə" və ya "dəstəkləyə" bilməz. Daffın nümunələri göstərir ki, həmin cinayətkarlar xarakter etibarilə şəxsiyyət pozuntusu olan insanlardır lakin bu dolayı qəsd və ehtiyatsızlıq arasındakı "şüurluluq" sərhədini aradan qaldırmaq üçün kifayət deyil [13, s. 49].

Alman hüququndakı *bewusste Fahrlässigkeit* (şüurlu ehtiyatsızlıq) anlayışını təhlil edərkən mühüm bir psixoloji detal diqqət çəkir. Alman doktrinasına görə, şüurlu səhlənkarlıqda şəxs riski görür, lakin nəticənin baş verməyəcəyinə "inanır" (trusts), bu inam "ümid" (hope) anlayışından fərqlidir. Məsələn, dar və döngəli yolda sürətlə gedən sürücü düşünür ki, onun maşını mükəmməldir, fara işıqları güclüdür və o peşəkardır. Bu sürücü riski dərk edir, lakin öz bacarığına və mövcud şəraitə güvənərək qəzanın baş verməyəcəyinə inanır. Alman hüququnda bu inam onu *dolus eventualis*-dən (ehtimal olunan qəsddən) ayırır. Anqlosakson hüququndakı *recklessness* (dolayı qəsd) bu iki vəziyyəti (həm "inanma" halını, həm də "mənim üçün fərqi yoxdur" halını) eyniləşdirir. Lakin Alman modeli daha ədalətlidir, çünki o, subyektin nəticə ilə olan iradi bağını (razılaşma və ya inam) daha dəqiq ölçür. Dolayı qəsd o halda olmalıdır ki, şəxs nəticənin baş verməyəcəyinə dair heç bir real əsasa (inamına) malik olmasın.

Ehtiyatsızlığı qəsddən ayıran ən mühüm məqamlardan biri də şəxsin nəticəni arzulamamasıdır. Qrinberq bir "foreman" (iş icraçısı) nümunəsi verir: iş icraçısı bilir ki, tikinti praktikasında təhlükəsizlik qaydalarını pozmaq işçilərin həyatı üçün risk yaradır. O, bu nəticəni əsla arzulamır, hətta buna görə narahatdır. Lakin işi vaxtında bitirmək təzyiqi altında o, riski "grudgingly" (istəməyərək, könülsüz) qəbul edir. Burada Stark və Simesterin "seçim" nəzəriyyəsi işə düşür. Şəxs nəticəni istəməsə belə, riski bildiyi halda davam etməsi onu həmin zərərli nəticə ilə "eyniləşdirir" (alignment). Çünki o, öz hərəkətini davam etdirmək naminə başqasının həyatını riskə atmağa razılaşmış olur. Ehtiyatsızlıqdan cinayət törədən şəxsdə isə bu eyniləşmə yoxdur, çünki onun iradəsi risk faktı ilə heç vaxt toqquşmayıb [12, s. 125].

"Elliott v C (A Minor) (1983)" məhkəmə işinə diqqət yetirək. Bu iş cinayət hüququnda "ehtiyatsızlıq (negligence) və dolayı qəsd" (recklessness) anlayışını müəyyən etmək üçün ən çox müzakirə olunan nümunələrdən biridir. Hadisəni törədən 14 yaşlı, həmyaşıdlarından fərqli olaraq çox aşağı intellekt səviyyəsinə və qavrama çətinliyinə malik bir məktəbli qız idi. Qız valideynləri ilə mübahisəsindən sonra evdən qaçır, gecəni küçədə ac və yorğun keçirir. Sığınmaq üçün bir bağçadakı taxta anbara daxil olur. İsinmək üçün yerdə tapdığı tezalışan mayeni (ağ spirti) kibritlə yandıraraq alovlandırır. Nəticədə anbar tamamilə yanır və məhv olur. Məhkəmə prosesi zamanı əsas mübahisə qızın bu hərəkəti bilərəkdən edib-etmədiyi üzərində qurulur. Birinci və apellyasiya instansiya məhkəmələri ilkin olaraq qızı ehtiyatsızlıqdan törədilən cinayət (etinasızlıq) üzrə təqsirli bilir, səbəb olaraq qeyd edilir ki, qızın zehni qabiliyyəti bu hərəkətin anbarı tamamilə yandıracağını və belə bir risk yaradacağını anlamağa imkan vermirdi.

Prokurorluğun protestindən sonra Ali Məhkəmə qərarı dəyişir və qızı dolayı qəsd üzrə təqsirli elan edir. Məhkəmə "Caldwell testi" deyilən obyektiv yanaşmanı tətbiq edir. Bu prinsipə görə: risk barədə düşünərkən hadisəni törədən şəxsin zehni vəziyyətinə yox, "normal bir insanın" (reasonable person) hadisəyə necə yanaşacağına baxılmalıdır. Normal bir insan spirt töküb kibrit çəkməyin anbarı yandıracağını başa düşərdi. Buna görə də qızın şəxsi qavrama probleminin olması onu məsuliyyətdən azad etmir. Bu qərar illər boyu ədalətsiz hesab edilərək kəskin tənqid olunur, çünki qavrama problemi olan uşağa normal insan standartı tətbiq edilmişdi. Nəhayət, 2003-cü ildə İngiltərədə başqa bir məhkəmə işi ilə bu sərt qayda ləğv edildi və qərara alındı ki, uşaqların törətdiyi belə hadisələrdə mütləq onların öz yaş və dərketmə səviyyəsi nəzərə alınmalıdır [1, s. 170].

Normal insan standartı modeli (şüurluluq tələbi) sözügedən qızı qəsd ittihamından azad edir, çünki o, riskdən xəbərdar deyildi. Lakin Daffın modeli belə halları da "qəsd" kimi qiymətləndirmək riski daşıyır. Qrinberq isə bildirir ki, ədalətli sistem təqsirin qiymətləndirilməsini şəxsin "koqnitiv qabiliyyətlərinə" (cognitive capacities) uyğunlaşdırmalıdır. Əgər şəxsin riski görmək imkanı yoxdursa, onu dolayı qəsd (reckless) adlandırmaq mənəvi cəhətdən yanlışdır. Bu, şüurluluq meyarının fərdləri dövlətin həddindən artıq müdaxiləsindən qoruyan bir qalxan olduğunu bir daha sübut edir.

**Nəticə**

Ehtiyatsızlıq və dolayı qəsd arasındakı fərq sadəcə bir terminologiya məsələsi deyil. Aleksandr Qrinberqin təhlili göstərir ki, şüurluluq şəxsin "səbəblərə cavab vermə" qabiliyyətinin tərkib hissəsidir və ona qanunsuzluqdan çəkinmək üçün real imkan verir. Dan Morkelin müqayisəli təhlili isə bizə xatırladır ki, subyektin "inam" və "ümid" arasındakı incə psixoloji keçidləri onun təqsirinin dərəcəsini müəyyən etməkdə vacibdir. Antoni Daffın şüurluluğu inkar edən modeli maraqlı olsa da, mühakimənin

məntiqi strukturu qarşısında zəif qalır. Şüurluluq, şəxsin öz iradəsini risklə eyniləşdirməsi üçün zəruri körpüdür. Beləliklə, şüurluluq meyarı həm anqlosakson, həm də kontinental hüquqda ədalətli cəzalandırmanın və fərdi azadlıqların qorunmasının ən əsas təminatçısı kimi qəbul edilir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


1. Alvarez, M. (2010). Kinds of Reasons: An Essay in the Philosophy of Action. Oxford University Press, 209
2. Bohlander, M. (2008). Principles of German Criminal Law. Bloomsbury, 244
3. Duff, R. A. (2019). Two Models of Criminal Fault. Criminal Law and Philosophy, 13, 643–660.
4. Ebert, Udo, Strafrecht Allgemeiner Teil (2001), 3. Auflage, Heidelberg, 268
5. Jescheck, H. H. (1978). Lehrbuch des Strafrechts. Duncker & Humblot, 838
6. Greenberg, A. (2024). Awareness and the Recklessness/Negligence Distinction. Criminal Law and Philosophy, 18, 351–367.
7. Heinrich, Bernd, Strafrecht Allgemeiner Teil II, Stuttgart, 2005, kn. 1010.
8. Hart, H. L. A. (2008). Punishment and Responsibility: Essays in the Philosophy of Law (2nd ed.). Oxford University Press, 277
9. Hyman, J. (2015). Action, Knowledge, and Will. Oxford University Press, 255
10. Morkel, D. W. (1982). On the Distinction between Recklessness and Conscious Negligence. The American Journal of Comparative Law, 30(2), 325–333.
11. Model Penal Code (1962). Official Draft and Explanatory Notes. American Law Institute, 315
12. Simester, A. P. (2021). Fundamentals of Criminal Law: Responsibility, Culpability, and Wrongdoing. Oxford University Press, 513
13. Stark, F. (2016). Culpable Carelessness: Recklessness and Negligence in the Criminal Law. Cambridge University Press, 349


**Муршудов Рашад Рамиль оглу,**
докторант кафедры уголовного права и криминологии юридического факультета
Бакинского государственного университета

## ГРАНИЦА МЕЖДУ НЕОСТОРОЖНОСТЬЮ И КОСВЕННЫМ УМЫСЛОМ В СОВРЕМЕННОМ УГОЛОВНОМ ПРАВЕ: ЭЛЕМЕНТ ОСОЗНАННОГО ПОВЕДЕНИЯ И СРАВНИТЕЛЬНО-ПРАВОВОЙ АНАЛИЗ

### РЕЗЮМЕ

Определение форм вины в современном уголовном праве является основой для справедливого наказания как в англосаксонской, так и в континентальной правовой системах. В основе данной классификации лежит уяснение различий между умышленной и неосторожной формами вины. В нашем исследовании мы определим, почему элемент осознанности является как необходимым, так и нормативно обоснованным для различения рассматриваемых понятий. В статье критикуется модель «практического подхода» Энтони Даффа, проводятся сравнения с понятиями dolus eventualis и bewusste Fahrlässigkeit в немецкой правовой теории и последовательно объясняется пропорциональное увеличение степени вины за счет «дополнительных возможностей», которые сознательное поведение предоставляет субъекту.

**Murshudov Rashad Ramil,**
Doctoral Student, Department of Criminal Law and Criminology,
Faculty of Law, Baku State University

## THE BOUNDARY BETWEEN NEGLIGENCE AND RECKLESSNESS IN MODERN CRIMINAL LAW: THE ELEMENT OF CONSCIOUS BEHAVIOR AND COMPARATIVE LEGAL ANALYSIS

**SUMMARY**

The definition of the forms of guilt in modern criminal law is the basis for fair punishment in both Anglo-Saxon and continental legal systems. At the heart of this classification is the clarification of the difference between recklessness, conscious negligence and criminal negligence. In our current study, we will determine why the element of awareness is both necessary and normatively justified for distinguishing the concepts in question. The article criticizes Antony Duff's "practical attitude" model, draws comparisons with the concepts of dolus eventualis and bewusste Fahrlässigkeit in German legal theory, and explains in a coherent way the proportional increase in the degree of guilt through the "additional opportunities" that conscious behavior gives the subject.

**Redaksiyaya daxilolma tarixi: 15.07.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 16.07.2026**
**Çapa qəbul olunma tarixi: 17.07.2026**